

# BMT platformasından bəyan olunan həqiqət

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında regionda ədaləti və sülhü təmin edən lider kimi iştirak edir

**Hazırda dünyanın siyasi gündəmi BMT Baş Assambleyasının Nyu Yorkda keçirilən 80-ci sessiyasına köklənib. "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır.**

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün ABŞ-yə işgüzar səfər edib. Səfərinin ilk günü dövlətimizin başçısı Nyu Yorkda qarşı tərəflərin müraciətlərinə əsasən mühüm görüşlər keçirib. Prezident İlham Əliyev BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında İraq və Keniya prezidentləri, Yunanıstanın baş naziri və Avropa Şurasının Baş katibi ilə görüşüb.

### Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar yaradıb

Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının 80-ci sessiyasındakı iştirakını müstəsna edən ayrı vacib məqamlar da var ki, bunlara mütləq toxunulmalıdır.

Məlumdur ki, Azərbaycan BMT ilə əlaqələrə hər zaman böyük önəm verib. 1992-ci il martın 2-dən bu quruma üzv olan respublikamızın BMT ilə əlaqələrinin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyev BMT-nin müxtəlif sessiyalarında Ermənistan-Azərbaycan münaqişəsini dünya ictimaiyyətinin nəzərinə çatdırıb, ölkəmizin prinsipial mövqeyini ortaya qoyub. Eyni zamanda Prezident İlham Əliyev daim BMT ilə əlaqələrin inkişafının tərəfdarı olub. Qurumun əvvəlki sessiyalarında da iştirak edən Prezident İlham Əliyevin 20 sentyabr 2017-ci ildə BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı nitqi, həmçinin qurumun 75-ci sessiyasının ümumi debatlarında etdiyi çıxışları ölkəmizin həqiqətlərinin dünyaya bir daha çatdırılması, Ermənistanın işğalçılıq siyasətinin ifşası baxımından çox vacib əhəmiyyət daşımışdı.

Ancaq Azərbaycan Prezidenti bu dəfə Nyu Yorka vaxtilə BMT tribunasından dünyaya çatdırdığı və ədalətli həllini tələb etdiyi Qarabağ məsələsini məhz öz siyasi qətiyyəti ilə yoluna qoyan qalib lider kimi yollanıb. Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən və məqsədyönlü siyasət nəticəsində BMT Təhlükəsizlik Şurasının onilliklər boyu kağız üzərində qalan məlum qətnamələri yerinə yetirilib və Cənubi Qafqazda tamamilə yeni reallıqlar yaranıb. Dövlətimizin başçısı cəmi bir ay əvvəl ABŞ-yə işgüzar səfərə yollanmışdı. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə İlham Əliyevin Vaşinqtona səfəri bölgəmizdə dayanıqlı sülhün əldə olunması üçün atılan vacib addımlarla yadda qaldı. Ermənistan-Azərbaycan arasında sülh sazişi mətninin paraflanması tezliklə barış müqaviləsinin imzalanacağından xəbər verir.

Bir sözlə, Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 80-ci yubiley sessiyasına ədaləti təmin edən və sülh yaradan lider kimi qatılıb.

### Azərbaycan modeli

Qeyd edildiyi kimi, BMT Baş Assambleyasının budəfəki sessiyası "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunub. Sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Yeri gəlmişkən, qeyd edək ki, Qarabağda qazandığı zəfərlə dünyada mövcud olan bu tip münaqişələrin həlli üçün özünəməxsus model ortaya qoyan Azərbaycan həm də sülhün necə əldə olunması ilə bağlı mükəmməl nümunə yaradıb. Bununla nəinki Cənubi Qafqaz, eləcə də geniş coğrafiya üçün hərtərəfli əməkdaşlıqla bağlı zəmin formalaşdırıb.

Prezident İlham Əliyev hər zaman BMT Baş Assambleyasının sessiyalarında xüsusi ehtiram və hörmətlə qarşılanıb. Sessiya çərçivəsində ölkəmizin rəhbərinin etdiyi çıxışlar, keçirdiyi görüşlər böyük maraqla qarşılanıb. Dövlətimizin başçısının BMT Baş Assambleyasının 80-ci yubiley sessiyasının ən nüfuzlu qonaqları sırasında olması bu baxımdan təsadüfi deyil.

Prezident İlham Əliyev səfərinin ilk günündə Nyu Yorkda bir neçə tanınmış şirkət rəhbəri ilə görüşlər keçirib. Bunlar dünyanın alternativ investisiyalar sahəsində böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management"in baş icraçı direktoru Brüs Flətt, beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edən "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker və alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qreydir. Vurğulayaq ki, dövlətimizin başçısı ilə görüşlər məhz qarşı tərəflərin müraciətləri əsasında baş tutub ki, bu da adıçəkilən şirkətlərin ölkəmizə olan böyük marağından xəbər verir.

### Siyasi liderlik qabiliyyəti

Prezident İlham Əliyev dünyada həm də sözü imzası qədər kəsərli olan lider kimi tanınır. Bir çox ölkələrin rəhbərlərinin İlham Əliyevin timsalında etibarlı dosta malik olmalarını fəxrlə dilə gətirmələri də bunu göstərir. Eyni zamanda bu gün Azərbaycan kimi güvənli bir ölkə ilə hərtərəfli əməkdaşlıqda nəinki yaxın, qonşu ölkələr, hətta, sözün həqiqi mənasında, dünyanın o başında yerləşən nəhəng ABŞ, Çin kimi dövlətlər də maraqlıdır. BMT Baş Assambleyasının 80-ci sessiyasında həm müxtəlif ölkələrin liderlərinin, həm də dünyanın nüfuzlu qurum və şirkətlərinin rəhbərlərinin İlham Əliyevlə görüşmələri bu baxımdan təbiidir.

Prezident İlham Əliyevin sentyabrın 23-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Finlandiya Prezidenti Aleksandr Stubb, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, Keniya Prezidenti Uilyam Samoei Ruto ilə görüşləri olub. Dövlətimizin başçısının Avropa Şurasının Baş katibi Alen Berse ilə söhbəti zamanı Vaşinqton görüşündə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasına, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına dair sazişin paraflanmasına və ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsinin əhəmiyyətinə toxunulub. Bütün bunların regionda davamlı sülhün təmin olunması baxımından vacibliyi qeyd edilib.

Keçirilən bütün bu yüksəksəviyyəli görüşlər dünyada Azərbaycana olan böyük diqqət və marağın, Prezident İlham Əliyevin qlobal nüfuzunun göstəricisidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan*

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.10.